İşıqlı sabahlar üçün, parlaq bir gələcək üçün, çiçəklənən millət üçün, səsi dünyaya yayılacaq bir gənclik üçün, düşünərək yaşayanlar üçün, xoşbəxt bir ailə üçün, sevincli qəlblər üçün, gülən üzlər üçün, həyat səhifələrimizi parlaq imza sahiblərinin qələmi ilə yazmaq üçün

parlaq imzalar

Kitabın sahibi: ______________________________

Oxu tarixi: ______________________________

# QARŞISIALINMAZ

## Əmələ inamın qeyri-adi gücü

NİK VUYİÇİÇ

İngilis dilindən tərcümə edən:

Namiq Bağırlı

İmzalar nəşrlər

| | |
|---|---|
| Buraxılışa məsul: | Nurman TARİQ |
| Tərcümə edən: | Namiq BAĞIRLI |
| Redaktorlar: | Rafiz MƏMMƏDOV<br>Toğrul MUSAYEV |
| Korrektor: | Turac ELDARQIZI |
| Bədii və texniki tərtibat: | İsmayıl SÜLEYMANLI |
| Üz qabığının dizaynı: | Azər ƏSGƏRZADƏ |

**Nick Vujicic**
**UNSTOPPABLE:** *(The Incredible Power of Faith in Action)*

**Nik Vuyiçiç**
**QARŞISIALINMAZ:** *(Əmələ inamın qeyri-adi gücü)*

Bakı, "Parlaq İmzalar" Nəşriyyatı – 2018, 328 səh.

**© Nicholas James Vujicic / 2012**
**© Parlaq İmzalar MMC / 2018**
Bu kitab "Penguin Random House LLC"nin şöbəsi olan "The Crown Publishing Group"a məxsus "WaterBrook Press" ilə bağlanılmış müqavilə əsasında nəşr olunur. Kitabın Azərbaycan dilində nəşr hüququ "Parlaq İmzalar" Nəşriyyatına məxsusdur. Bütün hüquqları qorunur. İcazəsiz olaraq hər hansı vasitə ilə nəşri qadağandır.

Parlaq İmzalar Nəşriyyatı | 63
Nik Vuyiçiç seriyası | 3

ISBN 978-9952-5250-4-5
9789952525045

www.parlaqimzalar.az
info@parlaqimzalar.az
fb.com/parlaqimzalar
0552597259 / 0559697259

# Mündəricat


Ön Söz ____ 11

Giriş ____ 15

I HİSSƏ

**Hərəkətli fəaliyyət** ____ 19
İnamla hərəkət etmək ____ 22
İnancını əməldə göstərsən,
Mükafatlandırılacaqsan ____ 25
Əmələ inamım ____ 28
Məqsəd üçün yaradılmış sifariş ____ 30
Sübuta ehtiyac yoxdur ____ 35
İnanmaq və məqsədinə nail olmaq ____ 36
Sevgi insanı inamını
əməldə göstərməyə səsləyir ____ 36
İnamın izi ilə gedən ____ 42
Onun niyyəti mənə bəlli oldu ____ 44
Qismətimizə düşən imkanlar ____ 46

II HİSSƏ

**Eniş sonrası yüksəklik** ____ 49
Gücünü işə salmaq ____ 51
Köhnə yaraları sağaltmaq ____ 53
Qaranlıq sədd ____ 57
Bəyan edilən dərslər ____ 61

Hisslər reallığa qarşı ____ 63
Perspektivi qoruyub saxlamaq ____ 65
Tanrı tərəfindən bəxş olunmuş sadəlik ____ 66
İnamın parlamasına şərait yaratmaq ____ 70
Yatağa məhkum, amma əzmli insan ____ 71

III HİSSƏ

**Ürəklə bağlı məsələlər** ____ 75
Tanrının sənə olan sevgisi səni sevimli edir ____ 79
İçindən gələn sevgi ____ 81
Sev ki, seviləsən ____ 83
Heç vaxt sevgidən üz döndərmə ____ 84
Sevginin gözləri ____ 87
Sevgidən ağlını itirmiş ____ 89
Ürək yarışı ____ 91
Niksayağı məhəbbət ____ 93
Məsələni həll etmək ____ 101
Sınaqdan çıxmış sevgi ____ 104

IV HİSSƏ

**İstək və məqsəd dolu həyat** ____ 113
İstəklərini tapmaq ____ 115
Zaman həlledici məfhumdur ____ 118
Bibliya qəhrəmanlarının sevgisi ____ 121
Yaradılmağımızda bir məqsəd var ____ 123
Yolunu dəyişmək ____ 130
Faydalı olmaq istəyi ____ 133
Həyatda həqiqi istəyini tapmaq ____ 135
Öz daxilinə nəzər salmaq ____ 140

## V HİSSƏ

**Zəif bədən, güclü ruh** 145
Ümidsizliyin əvəzində rahatlıq 148
Axı niyə mən? 152
Bədbəxtliklər insanı gücləndirir 156
Möcüzələr baş verə bilər 159
Biz insanlar üçün nümunəyik? 161
Üzləşdiyimiz faciələrdən dərs almaq 166
Sağalmaz xəstəliyə düçar
olmağını problemə çevirmə 170

## VI HİSSƏ

**Daxili savaşlardan qalib çıxmaq** 179
Həyata baxış bucağını dəyişmək 185
Səni sevirlər 186
Sən tək deyilsən 191
Yardım üçün uzanan əllər 195
Əsl dostlar 197
İnsanlara kömək əlini uzat 200

## VII HİSSƏ

**Ədalətsizliyə qarşı mübarizə** 207
Qlobal problem 212
Mərhəmətli Samartiyalı kimi ol 223
Təhdid və şiddətə qarşı
mübarizədə inamına bel bağlamaq 227
Kiber təqiblər və istehza dolu ismarıclar 229
İfrat formada yayılmış zorakılıq halları 231

## VIII HİSSƏ

**Maneələri dəf et, yüksəklərə ucal!** ______________ 245
Tanrıya təslim olmağın bizə bəxş etdiyi güc ______249
Hər şeyi Tanrının ixtiyarına burax _______________255
Tanrıya təslim olmağın verdiyi rahatlıq __________259
Həyatını Tanrıya təslim etməyin mənası _________264
Səbir və inam _________________________________267

## IX HİSSƏ

**Xeyirxah toxumlar səp**_________________________ 271
Xalqa xidmət__________________________________277
Toxumlar səpilmişdir ___________________________282
Bir-birini dəyərləndirmə________________________286
Daha faydalı işlər
görmək üçün bir araya gəlmək_________________290

## X HİSSƏ

**Həyatda tarazlığı qoruyub saxlamaq** ___________ 305
Həyata uyğun plan_____________________________309
Həyata qlobal mövqedən yanaşmaq _____________311
Gördüyü işə tam bağlılıq _______________________314
Hər şeyin öz vaxtı var _________________________317

Minnətdaram! ________________________________325

*Göylərdə görüşəcəyimə ümid etdiyim qayın-atam Kiyoşi Miyaharanın əziz xatirəsinə...*

*Bu kitabı Tanrının mənə ən böyük bəxşişi, əbədi sevinc və ilham mənbəyim olan qadın, həyat yoldaşım Kana Lyuda Vuyiçiç Miyaharaya həsr edirəm.*

# Ön Söz

Nə əl istəyirəm, nə də ki ayaq
Mən məqsəd istəyirəm.
Əllər, ayaqlar istəmirəm
Mən sülh istəyirəm.
Əllər, ayaqlar istəmirəm
Kimin üçünsə möcüzə olmaq istəyirəm…

*Nik Vuyiçiç*

Nə vaxtsa güzgü qarşısında saçını darayarkən düşündünmü ki, əgər əllərin və ayaqların olmasaydı, həyat necə olardı? Nə vaxtsa düşündünmü ki, ayaqların olmasaydı, hər gün getdiyin yerlərə necə gedərdin? Əllərin-ayaqların olmasaydı, Tanrıya münasibətin dəyişərdimi? Səni əldən-ayaqdan məhrum edən bir Tanrıya həyatın barədə şikayət edərdinmi?

* * *

Nik Vuyiçiç 1982-ci il, dekabrın dördündə Avstraliyanın Melburn şəhərində dünyaya göz açmışdır. Nikin doğuluşu valideynləri üçün xoşagəlməz bir sürpriz olmuşdu. Onun nə

əli var idi, nə də ki, ayağı… Nikdə fokomeliya xəstəliyi var idi. Həkimlər əvvəlcə doğulan körpəni anasına göstərmək istəməmişdilər. Sonradan körpəni anaya uzatdıqları zaman ana Niki görməkdən imtina edərək hönkür-hönkür ağlamışdı.

Nikin ata və anası güclü etiqada malik xristiandır. Buna baxmayaraq, Nik doğularkən onlar Tanrıdan nəyə görə doğulan uşaqlarını belə yaratdığını, onlara niyə belə əzab verdiyini soruşmuşdular. Əslində, bunlar təbiidir. Sonradan valideynləri Niki böyük sevgi hissi ilə böyüdüb başa çatdırmışdılar. Əlləri-ayaqları olmasa da, Nik gümrah bədənə sahib idi.

Nikin böyük faciəvi illəri onun məktəb dövrünə təsadüf edir. Məktəbdə oxuduğu illərdə tez-tez uşaqlar onu ələ salır və ona gülürdülər. Bütün bunlar Niki mənfi düşüncələrə qərq olmağa, nəhayət, intihar meylinə gətirib çıxarır. Həyatında bir neçə dəfə intihar düşüncəsində olan Nik nə vaxtsa gözəl bir həyata, onu sevən, ona qayğı göstərən qadına sahib olacağını ağlına belə gətirməzdi.

İntihar etmək istədiyi məqamlarda ailəsi göz önünə gəlmiş, bununla onlara əzab verəcəyini düşünərək bu fikrindən vaz keçmişdir.

Fiziki məhdudiyyətinə baxmayaraq, Nik məktəbdə bütün fənlərdən əla qiymətlər alırdı. Həkimlər valideynlərinə Nikin fiziki məhdudiyyətli uşaqlar üçün təşkil edilmiş məktəbdə təhsil almağını məsləhət görsələr də, valideynləri bunu qəbul etməmiş, onun digər sağlam insanlarla birgə təhsil alması uğrunda mübarizə aparmışlar. Nik 21 yaşında uni-

versitetə daxil olmuş və mühasibatçılıq üzrə təhsil almışdır. Amma Nik öz sahəsinə qarşı çox da böyük istək duymurdu. Sanki Tanrı onu harasa səsləyirdi…

Hələ məktəb illərindən Nik bəzən sinif yoldaşları ilə söhbət edərək onlara başına gələn hadisələri danışmış, bütün bu çətinliklərə rəğmən, heç zaman ümidini itirmədiyini söyləmişdir. Onun söylədiyi hər bir kəlmə şagirdlərə böyük təsir göstərirdi. Bundan sonra o, Avstraliyanın kilsələrində, gənclər təşkilatlarında, məktəblərində çıxış edərək insanları ruhlandırır, həyata səsləyirdi.

Onun çıxışları bir çox insanın həyatını xilas etmişdir.

O, dünyanın 24-dən artıq ölkəsində çıxış etmiş, bir çox ölkələrin rəsmi şəxsləri, eləcə də prezidentləri ilə görüşmüşdür. 2005-ci ildə "İlin Ən Gənc Avstraliyalısı" mükafatına layiq görülmüşdür.

2012-ci ildə onun həyatında əhəmiyyətli bir dəyişiklik baş verdi. Nik ilk baxışda aşiq olduğu Kana Miyaharayla ailə qurdu, 2013-cü ildə isə onların ilk övladları dünyaya gəldi.

Beş kitabın müəllifi olan Nik Vuyiçiç İncil vaizi, natiqi olmaqla bərabər, həm də aktyor kimi bir filmə ("The Butterfly Circuit" – "Kəpənək Sirki") çəkilmiş, eyni zamanda "Daha çox" ("Something More") adlı musiqinin ifaçısı olmuşdur.

Yazdığı kitabların hər birində Nik əsas bu fikri insanlara çatdırır: insan başına hansı faciələrin, bədbəxtliklərin gəlməsindən asılı olmayaraq, heç zaman ümidini itirməməlidir, hər bir uğursuzluq yeni bir uğurun yaranmasının əlamətidir.

Yazdığı kitablarda Nik dünyanın müxtəlif ölkələrində yaşayan, həyatında çox böyük çətinliklərlə üzləşən, amma heç zaman həyatdan əlini üzməyən insanların həyat hekayəsini də oxucuları ilə bölüşmüşdür.

"Parlaq İmzalar" Nəşriyyatı səssiz duruşu ilə belə insanları həyata bağlayan bu dəyərli insanın indiyə kimi nəşr olunmuş və dünyaca məşhur 5 kitabının hamısını rəsmi müqavilə ilə seriya şəklində nəşr edib ölkə oxucularına təqdim edir.

İnanırıq ki, dünyada milyonlarla insanın ümid mənbəyi olan, insanlara bütün məhrumiyyətləri ilə birlikdə həyatı sevdirən və bunu öz missiyası hesab edən Nik Vuyiçiç Azərbaycan insanına da bütün çətinliklərə, sıxıntılara rəğmən, hüdudsuz düşünməsinə və hüdudsuz yaşamasına kömək edəcək.

parlaq imzalar

# Giriş

İkinci kitabıma xoş gəlmisən. Adım Nik Vuyiçiçdir (Vuyi-çiç kimi tələffüz olunur). İlk kitabım olan "Hüdudsuz həyat"ı oxumasan belə, yutub kanalındakı videolarımı izləmiş, yaxud da dünyanın müxtəlif yerlərində incil vaizi kimi etdiyim çıxışların birində iştirak etmiş ola bilərsən.

Çox güman ki, əlsiz-ayaqsız doğulduğumu bilirsən, yaxud da kitabın üz qabığındakı şəklimdən bunu görmək olar. Sənin görə bilmədiyin, amma ola bilsin, artıq hiss etdiyin şey, əlsiz-ayaqsız doğulmağımın məni həyatın böyük macəralarından, məna dolu məşğuliyyətlərdən və sevgi dolu münasibətlərdən zövq almağıma mane ola bilməməsidir. Bu kitabda məqsədim, fiziki qüsurlarıma baxmayaraq, çox gözəl bir həyat qurmağıma səbəb olan inama əsaslanmağın qarşısıalınmaz gücə malik olduğu fikrini səninlə bölüşməkdir.

İnamını əməldə göstərmək, inanmaq və nail olmaq deməkdir. Bu özünə, istedadına, məqsədinə, ən çox da Tanrının sevgisinə, Onun sənin həyatın üçün hazırladığı müqəddəs plana inanmaq deməkdir.

Bu kitabı, dünyanın müxtəlif ərazilərində yaşayan, bütün yaş dövrlərində olan, həyatlarındakı özünəməxsus çə-

tin sınaqlarla bağlı məndən məsləhət və yol göstərməyimi istəyən insanların müraciətlərindən ruhlanaraq yazmışam. Onlar çıxışlarımdan bilirlər ki, başıma gələn faciələrin – gənclik illərimdə intihar düşüncələrim, özüm-özümə dəstək ola bilməyəcəyim, yaxud da məni sevən bir qadın tapa bilməyəcəyim barədə keçirdiyim narahatlıqlar, məktəb illərində uşaqlar tərəfindən ələ salınmağım və yalnız mənim başıma gəlməyən digər ağrı-acılı məsələlərin də öhdəsindən gəlmişəm.

Kitabda olan bölmələr insanların mənimlə söhbət və yazışmaları zamanı qaldırdıqları ümumi problemlərdən bəhs edir. Bunlara aşağıdakılar daxildir:

- Şəxsi böhran
- Qarşılıqlı münasibət məsələləri
- Peşə və işlə bağlı çətinliklər
- Sağlamlıq və fiziki qüsurlarla bağlı narahatlıqlar
- Tərki-dünyalıq düşüncələri, emosiya və pis vərdişlərə aludəçilik
- İnsanların məktəbdə, küçədə, işdə başqaları tərəfindən məsxərəyə qoyulması, bezdirilməsi, qəddarlıq və dözümsüzlük
- Bizim iradəmizin sərhədlərini aşan məsələlərlə məşğul olmaq
- İnsanlara necə əl tutmalı və yardım etməli
- Bədənimizdə, ağlımızda, ürəyimizdə və ruhumuzda tarazlığa nail olmaq

Ümidvaram ki, başıma gələn həyat hekayələri və başqa insanların yaşadığı çətinlik və faciələrlə (onların bir çoxunun yaşadığı çətinliklər mənim yaşadıqlarımdan qat-qat

böyükdür) tanışlığın necəliyindən asılı olmayaraq, qarşına çıxan sınaqların öhdəsindən gəlməkdə sənə yardımçı olacaq və səni buna ruhlandıracaq. Əlbəttə, mən də hər şeyi bilmirəm. Amma Göylərdəki Atamın mənə bəxş etdiyi sevgi və xeyir-dualarından, eləcə də müdrik insanların gözəl məsləhətlərindən faydalanmışam.

Düşünürəm ki, bu səhifələrdən praktik, eləcə də ruhlandırıcı məsləhətlər alacaqsan. Bu kitabı oxuyarkən unutma ki, sən qətiyyən yalnız deyilsən. Dostlardan, ailə üzvlərindən, müəllimlərdən, məsləhətçilərdən və ruhanilərdən kömək istəyə bilərsən. Sənə elə gəlməsin ki, özün təkbaşına yaşadığın çətinliklərin öhdəsindən gəlmək məcburiyyətindəsən. Bunu da unutma ki, səninlə eyni çətin sınaqları yaşayan başqa insanlar da var. Bu kitabda sən həmçinin tanıdığım və mənə öz yaşadıqları barədə məktublar yazan insanların həyat hekayələri ilə tanış olacaqsan. Bəzi hallarda onların adlarını dəyişmişəm, amma hekayələr gerçəkliyi əks elətdirməklə yanaşı, insanları cəsarətli, inamlı və dözümlü olmağa səsləyir.

Balaca bir oğlan kimi qüsurlarımı qəbul etməyə çalışdığım zaman yanlışlığa yol vermişdim, elə bilirdim ki, başqa heç kəs mənim qədər ağrı çəkməyib və yaşadığım bu problemlərdən çıxış yolu yoxdur. Sanırdım ki, əllərimin və ayaqlarımın olmaması Tanrının məni sevmədiyinin və həyatımın məqsədinin olmadığının göstəricisidir. Həmçinin elə hiss edirdim ki, bu yaşadığım ağrıları, əzab-əziyyəti heç kimlə, hətta məni sevən, qayğıma qalan insanlarla belə bölüşə bilmərəm. Tamamilə yanılmışdım. Çəkdiyim bu əzablarda yalnız deyildim. Əslində, həyatda bir çox insanlar bundan da ağır sınaqların altından çıxıblar. Və Tan-

rı sadəcə məni sevmir, O həm də bir uşaq kimi heç vaxt ağlıma belə gətirə bilmədiyim məqsədlərə görə məni yaratmışdır. O hər gün təəccübümə, heyrətimə səbəb olan vasitələrlə məni öz məqsədləri üçün istifadə edir.

Onu bil ki, nə qədər ki, bu yer üzündə yaşayırsan, sənin həyatın üçün də məqsəd və plan var. Tanrı səni sevir və ətrafında istənilən çətinlik anında sənə kömək etməyə hazır olan bir çox insanlar – səni sevənlər, peşəkarlar var. Ola bilər ki, çəkdiyin ağrı-acılar səni qorxutsun, amma növbəti səhifələrdə görəcəyin kimi, inamını əməldə göstərməyin verdiyi güc, doğrudan da, inanılmazdır. Bunu dərk etmək üçün, sadəcə yadında saxla ki, bu əlsiz-ayaqsız insan hüdudsuz sevgi və sevinc ilə milyonlarla insanla həmdərd üçün dünyanı dolaşır. Rast gələcəyin hər bir şəxs kimi mən də fiziki cəhətcə natamam insanam. Mənim də yaxşı və pis günlərim olub. Çətin sınaqlarla üz-üzə gəlmişəm və bəzən bunlar məni sarsıdıb. Bununla belə bilirəm ki, özümü zəif hiss etdiyim yerdə Tanrı güclüdür və biz inamla hərəkət etdiyimiz zaman qarşımıza çıxan maneələri qətiyyətlə dəf etməklə qarşısıalınmaz oluruq.

I HİSSƏ

# Hərəkətli fəaliyyət

2011-ci ilin sonlarına yaxın Meksikada insanlar qarşısında çıxış etməklə bağlı səfərim zamanı, Mexiko şəhərindəki Birləşmiş Ştatlar səfirliyindən bir rəsmi şəxs gələrək mənə xəbər verdi ki, Birləşmiş Ştatlardakı iş vizamın keçərliliyi "Milli Təhlükəsizlik Təhqiqatı" ilə bağlı olaraq müvəqqəti dayandırılmışdır.

Birləşmiş Ştatlarda bu viza ilə yaşayırdım, çünki Avstraliya vətəndaşıyam. Kaliforniyadakı evimə bu viza olmadan qayıda bilməzdim. İşçi heyətim Birləşmiş Ştatlarda gələn dövr üçün müxtəlif yerlərdə insanlar qarşısında çıxışımı planlaşdırdığına görə bu mənim üçün böyük bir problemə çevrilmişdi.

Növbəti günün səhərisi çətinliklə köməkçim Riç ilə Birləşmiş Ştatlar səfirliyinə getdim ki, vizamın milli təhlükəsizlik məsələləri ilə bağlılığı olduğunu aydınlaşdırım. Ora çatanda vestibüldə şəxsi məsələləri ilə bağlı gəlmiş böyük

bir izdihamla qarşılaşdıq. Çörək mağazasındakı kimi növbə tutmalı olduq. O qədər çox gözlədik ki, rəsmi şəxslərdən biri ilə görüşə çağrılanadək yaxşıca mürgülədim.

Əsəbiləşdiyim zamanlarda əhvalımı düzəltmək üçün zarafata əl atıram. Amma bu həmişə alınmır. Şuxluq edərək dedim:

– Vizada barmaq izimlə bağlı nəsə problem var?

Səfirliyin nümayəndəsi tərs-tərs mənə baxdı. Sonra o özündən rütbəcə böyük olan birini çağırdı. (Ola bilsin, etdiyim zarafat amerikalı təhlükəsizlik işçisini qorxutmuşdu) Nəzarətçi gəldi, o da mənə olduqca sərt nəzərlərlə baxdı. Sanki dəmir barmaqlıqlar arasından mənə baxırdılar.

– Bir təhqiqat işində adınız hallanır, – nəzarətçi mexaniki olaraq vurğuladı. – Bu məsələ aydınlaşdırılmayana kimi Birləşmiş Ştatlara dönə bilməzsiniz və bu məsələ də bir ay çəkəcək.

Beynimə qan vurdu. *Bu ola bilməz!*

Riç yerə çökdü. Birinci elə bildim ki, huşunu itirib, amma o, iki yüz insanın qarşısında diz çökmüşdü. Bəli, o çox xeyirxah köməkçidir. Əllərini göylərə açaraq Tanrıya dua etdi ki, möcüzə yaradıb bizi evə çatdırsın.

Sanki ətrafımda baş verənlər eyni zamanda gah sürətlənir, gah da ləngiyirdi. Başımı döndərən kimi, rəsmi şəxs onu da əlavə etdi ki, adım, çox güman ki, dünyanı çox dolaşdığıma görə hallanıb. Onlar mənim beynəlxalq terrorist olduğumdan şübhələniblər? Silah alveri ilə məşğul olan qolsuz adam? Yaxşı ki, heç kimi incitməmişəm. (Əsəbi olsam, gör nə olardı? Gəl indi məni saxla da!) Səfirliyin nümayəndəsinə dedim:

– Siz Allah, məni güldürməyin, belə vəziyyətimlə necə təhlükəli insan ola bilərəm ki? Sabah Üç Kral günü[1] şənliyində Meksikanın prezidenti və onun xanımı ilə prezident binasında görüşəcəyəm, bu da o deməkdir ki, onlar məni qətiyyən təhlükəli insan hesab etmirlər.

Birləşmiş Ştatlar nümayəndəsi buna reaksiya vermədi. O belə dedi:

– Mənə maraqlı deyil, istiyirsiz lap prezident Obama ilə görüşün, bu təhqiqat işi tamamlanmayana kimi Birləşmiş Ştatlara geri dönə bilməyəcəksiniz.

Əgər Birləşmiş Ştatlarda insanlar qarşısında çıxışlarımla bağlı siyahı tərtib edilməsəydi, bu vəziyyət gülməli ola bilərdi. Amma mən mütləq evə dönməli idim. Oturub kiminsə Nikin amerikalılar üçün təhlükəli bir insan olub-olmadığına qərar verəcəyini gözləyəcək durumda deyildim. Səfirliyin nümayəndəsindən dəfələrlə xahiş etdim, gördüyüm işi izah etdim, bir neçə vacib insanın adını çəkdim, vurğuladım ki, məni gözləyən əməkdaşlarım və mənə sayğı duyan kimsəsiz uşaqlar var.

Səfirliyin nümayəndəsi telefonla hansısa yüksək çinli məmurla bu məsələ barəsində söhbət etdi.

– Onların edə biləcəyi tək iş prosesi sürətləndirməkdir. Bu da ki, ən azı iki həftə çəkəcək" – o dedi.

Növbəti iki həftə üçün mənim, çox güman ki, çoxlu çıxışlarım var idi. Amma səfirliyin nümayəndəsi bunu heç eyninə də almırdı. Bu məqamda bircə əlacımız otelə qayıtmaq idi. Çox təlaşlı bir halda orada mən tanıdığım hər kəsə kömək və dua üçün müraciət etməyə başladım. İna-

[1] Xristianlıqda dini bayram – Tərc.

mını əməldə göstərməyin verdiyi gücdən istifadə etdim. Sadəcə "inanıram" demək kifayət deyil. Bu dünyada təsir buraxmaq istəyirsənsə, öz inancını və inamını əmələ yönəltməlisən. Bu vəziyyətdə duanın gücünə olan inamımdan istifadə etdim. Kaliforniyadakı "Əzalarsız Həyat" xeyriyyə təşkilatının işçi qrupuna zəng etdim və hər kəsdən bizə görə dua etməsini xahiş etdim. Onlara dedim ki, biz bu məqsədə nail olmaq üçün birgə fəaliyyət silsiləsi yaradırıq!

"Əzalarsız Həyat" xeyriyyə təşkilatının işçi heyəti saysız-hesabsız telefon zəngləri edir, çoxlu-çoxlu imeyllər yazır, tvitlər atır və mesaj yazırdılar. Bir saat ərzində yüz əlli insan bizim viza ilə bağlı çətinlikdən tez bir zamanda çıxmağımıza görə dua edirdi. Mən də həmçinin dostlarıma və qohumlarıma, yaxınlarıma, Birləşmiş Ştatlarda Dövlət Departamentindəki sinif yoldaşlarıma, bu işə təsir göstərə biləcək tərəfdarlarıma zəng etdim. Üç saat sonra Meksika səfirliyindən bir nəfər gəldi. Rəsmi şəxs söylədi:

– Buna inana bilmirəm, amma sizin işiniz həll olunub. Təhqiqat işi artıq başa çatıb. Yenilənmiş vizanızı sabah səhər götürə bilərsiniz.

Bax budur, dostlarım! Budur inamını əməldə göstərməyin yaratdığı güc! Bu, dağları yerindən oynada bilər və həmçinin Niki Mexikodan çıxara bilər.

### İnamla hərəkət etmək

Dünya üzrə etdiyim səyahətlər zamanı müxtəlif çətinliklərlə üzləşmiş insanlar məsləhət almaq və dua etməyim üçün mənə müraciət edirlər. Çox zaman onlar nə etmək lazım olduğunu bilirlər, lakin yardım istəmək, yaxud da Tanrıya pənah aparmaq məqamına gəldikdə yenilik etmək,

yaxud da ilk addımı atmağa qorxurlar. Sən də özünü köməksiz hiss etmək, qorxmaq, çətin vəziyyətə düşmək, nəyəsə əmin olmamaq, nəyisə bacarmamaq kimi çətinliklərlə üzləşə bilərsən. Bunlar mənim başıma gəlib. Yeniyetmələr və yetkin insanlar yanıma gələrək tay-tuşları tərəfindən incidildiyini, özlərini sanki azmış, bu dünyada yalqız kimi hiss etdiklərini, yaxud da fiziki qüsurlarına, xəstəliklərinə, yaxud da tərki-dünyalıq düşüncələrinə görə qorxduqlarını söylədikdə bunların nədən qaynaqlandığını bilirəm.

Fiziki cəhətdən üzləşdiyim çətinlikləri asanlıqla görə bilərsən, bununla belə bu fiziki qüsurlarıma baxmayaraq, necə böyük sevinc içində yaşadığımı anlamaq üçün insanların mənimlə söhbətə, yaxud da mənim danışıqlarıma qulaq asmağa bir neçə dəqiqə sərf etmələri kifayət edir. Beləliklə, onlar tez-tez məndən necə belə nikbin qala bildiyimi və fiziki qüsurlarıma baxmayaraq, üzləşdiyim çətinliklərin öhdəsindən gəlmək üçün haradan güc aldığım barədə mənə suallar verirlər. Cavabım həmişə belə olur: "Tanrıya mənə yar olması üçün dua edirəm və sonra hərəkətə inam bəsləyirəm". Mənim inamım var. Sübutuna ehtiyac görmədiyim müəyyən şeylərə inanıram – görüb, dadıb, toxunub, qoxlayıb, yaxud da eşidə bilmədiyim şeylərə inanıram. Ən çox da Tanrıya inamım var. Onu görə, Ona toxuna bilməsəm də, məni bir məqsəd uğrunda yaratdığına inanıram və hesab edirəm ki, inancımı və inamımı əməllərimlə sübut etsəm, Tanrının xeyir-dualarına layiq olaram.

İstədiyim şeyləri həmişə əldə edəcəyəmmi? Xeyr! Amma Tanrının istədiklərini həmişə əldə edəcəyəm. Bu sənin üçün də keçərlidir. Xristian olub-olmamağının fərqi

yoxdur, heç zaman düşünmə ki, sadəcə nəyəsə inanmaq kifayət edir. Öz arzularına inana bilərsən, amma onları reallaşdırmaq üçün hərəkətə keçməlisən. Öz bacarıqlarına, istedadlarına inana bilərsən, amma onları istifadə etməsən, inkişaf elətdirməsən, sənə faydası olarmı? Yaxşı, xeyirxah insan olduğuna inana bilərsən, amma xeyirxahlığını, yaxşılığını başqaları ilə rəftarında göstərməsən, bunu necə sübut edərsən?

Sənin seçimin var. İnana, ya da inanmaya bilərsən. Amma *əgər* inansan, – nəyə inanmağından asılı olmayaraq – buna uyğun hərəkətə keçməlisən. Yoxsa inanmağının nə faydası var ki, niyə inanırsan ki? Məşğul olduğun sahədə, insanlarla münasibətində, yaxud da sağlamlığında problemlərin ola bilər. Ola bilər, səninlə pis davransınlar, səni alçaltsınlar, yaxud da sənə qarşı ayrı-seçkilik etsinlər. Əgər özünü müəyyən etməkdə uğur əldə edə bilməsən, başına gələn bütün bu şeylər səni, sənin həyatını müəyyən edəcək. Öz istedadına inana bilərsən. Səndə başqalarına verə biləcək məhəbbət hissi olduğuna inana bilərsən. Xəstəliyinə, yaxud da fiziki qüsurlarının öhdəsindən gələ biləcəyinə inana bilərsən. Amma sadəcə inanmaqla həyatında müsbət dəyişiklik əldə edə bilməyəcəksən.

İnamını əməldə göstərməlisən.

Əgər həyatını yaxşılığa doğru dəyişə biləcəyinə, yaşadığın şəhərdə, ştatda, yaxud da dünyada müsbət dəyişikliklər edə biləcəyinə inanırsansa, bu inamını əməldə göstər. Öz biznesini qurmaq üçün böyük bir ideyan olduğunu düşünürsənsə, zamanını, pulunu, bacarığını buna sərf etməli və bu işini reallaşdırmalısan. Yoxsa nəyisə düşünmək, hansısa bir ideyaya sahib olmağın nə mənası var ki? Əgər

hansısa bir insanla ömrünün yerdə qalan hissəsini keçirmək istədiyinə qərar vermisənsə, bu inamını niyə əməldə göstərməyəsən ki? Bununla nəsə itirəcəksənmi?

### İnancını əməldə göstərsən, mükafatlandırılacaqsan

İnanca, inama, etiqada sahib olmaq böyük bir şeydir, həyatın isə bu inama, etiqada, inanca görə etdiyin əməllərlə ölçülür. İnandığın, etiqad bəslədiyin bu şeylərlə böyük bir yeniliklər yarada bilərsən. Mən öz inamımla həyatımda yeniliklər yaratmışam, həyatlarında çətinliklərlə üzləşən insanları ruhlandırmağı və onlara ümid verməyi bacarmışam.

Bu inam Tanrıya olan etiqaddan doğur. Belə bir inamım var ki, Tanrı məni bu yer üzünə başqalarını sevmək, ruhlandırmaq və cəsarətləndirmək, xüsusilə də İsa Məsihi öz Rəbbləri və Xilaskarları kimi qəbul etmək istəyən[1] insanlara kömək üçün göndərib. Mən əgər İsa Məsih vasitəsilə insanların günahlarının bağışlanılmasını qəbul etməsəydim, inanıram ki, heç vaxt göylərə gedən yolumu qazana bilməzdim.

Mirvari Darvazasından içəri keçmək üçün hələ çox işlər görülməlidir. Bu həmçinin Müqəddəs Ruh vasitəsilə başqalarının dəyişdiyini, bütün həyatları boyunca İsa Məsihlə yaxın əlaqəyə girdiyini və sonra göylərdə mükafatlandırıldığını görməkdir.

Tanrı məni cəzalandırmaq üçün əlsiz-ayaqsız yaratmayıb. Bunu indi anlayıram. Dərk etməyə başladım ki, əslin-

---

[1] Xristianlıq inancına görə – Red.

də, bu "əlilliyim" Tanrının məqsədinə xidmət edərək, incil vaizi və natiq kimi çıxış etmək bacarığımı gücləndirəcək. Bu fikirlərimə görə inamımı dəyişdiyimi düşünə bilərsən, çünki bir çox insanlar əzalarımın yoxluğunu böyük bir maneə hesab edirlər. Əksinə, Tanrı məni əlsiz-ayaqsız yaratmaqla insanları, xüsusilə də fiziki qüsurlu insanları özümə cəlb etmək, onları ruhlandırmaq, öz inam, ümid və sevgi ismarıclarım ilə onları ürəkləndirmək üçün istifadə edib.

İncil kitabında Yaqub söyləyir ki, sözlərimiz deyil, etdiyimiz əməllər inamımızı sübut edir. "Lakin kimsə belə deyə bilər: "Sənin imanın var, mənim də yaxşı əməllərim. Əməllərin yoxdursa, inamdan necə danışa bilərsən? Sən inamını mənə əməlsiz göstər, mən də sənə imanımı əməllərimlə göstərəcəyəm" (Yaqub, 2-18).

İncildə həm də onu oxumuşam ki, bədənimiz ruhumuzla uyğunluq təşkil etdiyi kimi, inanclarımız da əməllərimizlə vəhdət təşkil edir. Bədənin ruhun yerləşdiyi, onun mövcudluğunu sübut edən bir məkandır. Eyni şəkildə gördüyün əməllər inamını və etiqadını göstərir. Şübhəsiz, "İnamını əməldə göstərmək" ifadəsini eşitmisən. Ailə üzvlərin, dostların, müəllimlərin, müdirlərin, əməkdaşların, alıcıların və müştərilərin inandığın və etiqad göstərdiyin şeyləri əməllərində göstərəcəyinə ümid edirlər. Əgər bunu əməllərində göstərməsən, onlar səni bu yola dəvət edəcəklər, elə deyil?

Yaşıdlarımız bizi söylədiyimiz sözlərə görə deyil, gördüyümüz əməllərə görə mühakimə edirlər. Yaxşı bir həyat yoldaşı və ana olduğunu iddia edirsənsə, o zaman bəzən yeri gəldikdə ailə maraqlarını özündən üstün tutmalısan.

Məqsədinin ədəbi istedadının dünyayla paylaşmaq olduğuna inanırsansa, o zaman sadəcə məqsədinə görə deyil, yaratdığın əsərlərə görə mühakimə ediləcəksən. Sözlərini əməldə göstərməlisən; yoxsa nə başqaları sənə inanacaq, nə də özün-özünə inanacaqsan, çünki özün də əməllərinin sözlərinlə uyğun olmasını istəyirsən. Əgər belə olmasa, heç vaxt həyatda harmoniyanı tapa, həyatı dolğun yaşaya bilməyəcəksən.

Bir xristian övladı kimi necə yaşadığımıza görə bizi ən sonda mühakimə edənin Tanrı olduğuna inanıram. İncil bizə öyrədir ki, Tanrı bizi sözlərimizə görə deyil, əməllərimizə görə mühakimə edir. “Mən gördüm ki, böyükdən kiçiyə qədər ölülər taxtın önündə dayanıb. Kitablar açılmışdı və həyat kitabı olan başqa bir kitab da açılmışdı. Ölülər kitablarda yazılanlara əsasən, öz əməllərinə görə mühakimə olunurdular” (Vəhy, 20-12). İnamımı dünyanı dolaşaraq və insanları bir-birini sevməyə, Tanrıya sevgiylə yanaşmağa sövq edərək əməllərimdə göstərirəm. Bu məqsədlə özümü tamamlanmış kimi hiss edirəm. Həqiqətən də, inanıram ki, buna görə yaradılmışam. İnamını əməllərində göstərdiyin və əmələ inam bəslədiyin zaman sən də özünü tamamlanmış kimi hiss edəcəksən. Və rica edirəm ki, məqsədinə əmin olmasan belə, bunu əməllərində necə göstərmək lazım olduğunu bilməsən belə, heç vaxt ruhdan düşmə. Buna görə mübarizə aparmışam, indi də bu mübarizəm davam edir. Sən də belə edəcəksən. Məğlub oluram və tam mükəmməl deyiləm. Amma gördüyüm əməllər bunun bəhrəsidir – həqiqətə düzgün etiqadın dərinliyinin nəticəsidir. Bizi azad edən həqiqətdir, məqsəd deyil. Həqiqəti axtardığım üçün məqsədimə nail oldum.

Məqsədini tapmaq, yaxud da çətin halların öhdəsindən uğurla gəlmək həmişə asan olmur, amma bu, səyahətdir. Nəyə görə bu, səyahət sayılmalıdır? Nəyə görə helikopter sadəcə səni götürərək finiş xəttinə qədər apara bilmir? Çünki çətinliklərlə üzləşdiyin zaman daha çox şey öyrənirsən, inamın güclənir, Tanrıya və öz yaxınlarına sevgin artır. Bu, sevgiylə başlayıb, sevgiylə də bitən inam səfəridir. Bir vaxtlar amerikalı qul olan, sonra isə sosial natiq olan Frederik Duqlas[1] belə söyləyir: "Mübarizə olmayan yerdə, inkişaf da olmur". Xarakterin üzləşdiyin çətinliklər və onların öhdəsindən necə gəlməyinlə formalaşır. Qorxularınla üzləşdiyin zaman cəsarətin artır. İnamın və gücün həyat təcrübələrində sınandığı zaman formalaşır.

### Əmələ inamım

Dəfələrlə yəqin etmişəm ki, Tanrıdan kömək dilədiyimiz və hərəkətə keçdiyimiz zaman qəlbən Tanrının bizə yar olduğunu dərk edəriksə, qorxmaq üçün heç bir əsas olmaz. Valideynlərim qazandıqları həyat təcrübələri sayəsində bu məsələni mənə çox gözəl şəkildə öyrətmişlər. Onlar həyatda rast gəldiyim ən bariz inam-etiqad nümunələridir. Anamın dediyi kimi "yarımçıq" şəkildə yer üzünə gəlməyimə baxmayaraq, bir çox şeylər mənə bəxş olunub. Valideynlərim hər zaman mənə kömək etməyə hazırdır. Onlar məni ərköyün böyütməyiblər. Lazım gəldikdə məni cəzalandırıblar və təbii ki, onların yanında mənim də səhvlərim olub. Hər şeydən əvvəl onlar mənim üçün çox gözəl valideyn olublar. Mən onların ilk övladı idim və mü-

[1] Amerikalı yazıçı, abolisionist, orator – Red.

əyyən mənada onlar üçün gözlənilməz bir "sürpriz" idim. Hamiləlik dövründə bütün testlərdən keçməsinə baxmayaraq, anamın həkimi mənim bu dünyaya qolsuz və ayaqsız gələcəyimə dair heç bir əlamət aşkarlamamışdır. Anam özü təcrübəli tibb bacısı olmuş, dünyaya uşaq gətirən yüzlərlə qadına kömək etmişdir, beləliklə, o, hamiləlik dövründə bütün lazımi ehtiyat tədbirlərini görmüşdür.

Təbii ki, dünyaya qolsuz və ayaqsız gəldiyim zaman valideynlərim çox sarsılmışdılar. Başqa körpələr kimi mən də təlimat kitabı ilə gəlməmişdim, amma, təbii ki, valideynlərimin kiçik məsləhətlərə ehtiyacı olub. Belə hal ilə heç bir zaman rastlaşmamışdılar, bütün fiziki imkanlara malik insanlar üçün nəzərdə tutulmuş bu dünyada qolları-ayaqları olmayan bir körpə böyüdən heç bir valideyn görməmişdilər, gördükləri kompleks şəkildə dünyaya gəlmiş uşaqlar idi. Birinci dəfə dəli kimi olmuşdular, hər bir valideyn belə olardı. Hirs, günah, qorxu, stress, ümidsizlik – birinci həftə bu hisslər onları bürümüşdü. Çoxlu göz yaşları axıdılmışdı. Onlar təsəvvürlərində canlandırdığı sağlam, gözəl körpəni real həyatda görmədikdə məyus olmuşdular. Çox qəm-qüssə çəkdilər, gələcəkdə həyatın mənim üçün çox çətin olacağından ehtiyatlanırdılar.

Valideynlərim təsəvvür belə etmirdilər ki, Tanrı bu körpə barədə nələri planlaşdırmışdır. Bununla belə bir gün keçirdikləri şokdan ayılaraq Tanrıya pənah aparmağı qərarlaşdırdılar. Tanrının onlara niyə bu cür körpə verdiyini araşdırmaq fikrindən əl çəkdilər. Əvəzində, Tanrının niyyətinə tabe oldular, bu niyyətin nədən ibarət olmasına baxmayaraq, Tanrıya bel bağlamağı qərara aldılar və beləliklə, onlar məni mümkün və bacardıqları ən yaxşı vasi-

tələrlə böyütməyə başladılar və zaman-zaman bütün məhəbbət və sevgilərini mənə bəxş etdilər.

### Məqsəd üçün yaradılmış sifariş

Valideynlərim Avstraliyadakı tibbi imkanları sınaqdan çıxardıqdan sonra xəstəliyimin müalicəsi üçün Kanadaya və Birləşmiş Ştatlara, yaxud da xəstəliyimlə bağlı mənə ümid və məlumat verə biləcək digər ölkələrə üz tutdular. Bir çox fərziyyələr irəli sürülsə də, onlar mənim bu vəziyyətimin tam tibbi izahını verə bilmirdilər. Qardaşım Aron və bacım Mişel məndən bir neçə il sonra bütün əzaları sağlam şəkildə dünyaya gəlmişdilər, beləliklə, bu problem irsi xəstəliklə bağlı deyildi.

Bir müddətdən sonra valideynlərim artıq bu cür yaradılışımın səbəbinə önəm verməyərək daha çox gələcəkdə necə yaşayacağımla bağlı narahatlıqlar keçirməyə başladılar. Bu oğlan ayaqları olmadan necə hərəkət edəcəkdi? Özünü necə dolandıracaqdı? Məktəbə necə gedəcəkdi? Böyüdüyü zaman özünü necə müdafiə edəcəkdi? Əlbəttə, bunlardan heç biri körpə olan məni qayğılandırmırdı. Düşünmürdüm ki, bədənim başqalarının bədənindən fərqlənir. Elə bilirdim ki, insanlar mənə çox gözəl olduğuma görə baxırlar. Möhkəm və qarşısıalınmaz olduğuma da inanırdım. Şişirdilən döşəklər kimi özümü yataqdan atdığım, döşəməyə düşdüyüm, uşaq arabasından yıxıldığım və küçədə diyirləndiyim zaman valideynlərim narahatlıqlarını gizlədə bilmirdilər.

Dik təpə ilə üzüaşağı skeytbordla hərəkət etdiyimi görən zaman valideynlərimin keçirdiyi təlaşı təsəvvür etmək çətin deyil. *"Ana, bax, əllərim olmadan gör necə sürürəm!"*